# 15 iyun Milli Qurtuluş günüdür!

http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 11 (1608) 15 iyun 2015 - ci il Qiymәti 40 qəpik

# “Bakı-2015” birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi olub

## *Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib*




**Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın – birinci Avropa Oyunlarının açılışının həyəcan və sevincini yaşadı.**

Tamaşaçılar açılış mərasiminin keçirildiyi Bakı Olimpiya Stadionuna daxil olaraq yerlərini tutdular. “Bakı-2015” birinci Avropa Oyunları Əməliyyat Komitəsinin məlumatına görə, açılış mərasimi üçün nəzərdə tutulan bütün biletlər satılıb.

Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən ilk Avropa Oyunlarını tarixi hadisə adlandırırlar. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki iyunun 11-də AZƏRTAC-a müsahibəsində əminliklə vurğulayıb ki, Bakıda hər kəs gözəl, möhtəşəm və inanılmaz idman bayramının şahidi olacaq. Onun sözlərinə görə, “Bakı-2015” ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri olacaq və 6 min atletin 20 idman növündə mübarizəyə qatılması həqiqətən böyük göstəricidir.

Bakı Olimpiya Stadionuna toplaşmış 68 min tamaşaçı, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı unudulmaz tarixi anın şahidi oldular.

Paytaxtın xəritəsinə yeni daxil olmuş Bakı Olimpiya Stadionu öz möhtəşəmliyi, əsrarəngiz gözəlliyi ilə hər kəsin diqqətini çəkir. Burada dünyanın aparıcı bədii, yaradıcı və texniki heyətlərinin iştirakı ilə ərsəyə gələn kreativ şou nümayiş olundu. Stadion ən mürəkkəb tərtibata malik möhtəşəm səhnə mexanizmindən ibarət məkana çevrilmişdi. O, təbiətin dörd ünsüründən - su, od, torpaq və yel obrazlarından istifadə etməklə heyrətamiz bir mənzərə yaratdı. Səhnənin quraşdırılması üç aya başa gəlib.

Mərasimin təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunub.

Açılış mərasimini hazırlayan bədii heyətin siyahısına qısa nəzər yetirək: Bədii rəhbər 2004-cü ildə Afina Olimpiya Oyunlarında mərasimlərin qurucusu kimi dünyada böyük şöhrət qazanan Dimitris Papaioannoudur. Musiqi rəhbəri Teodor Currentzis 2014-cü ildə “Operaların lentə alınması üzrə ECHO mükafatı” laureatıdır. Quruluşçu rəssamlar isə Thanassis və Eva memarlıq, dizayn və səhnə quruculuğunun kreativ məkanı olan “Flux Ofis” şirkətinin memar və yaradıcıları – Tanassis Demiris və Eva Manikadakidir. Onların memarlıq, teatr, opera, rəqs və kino sahəsindəki işləri Venesiya Memarlıq Biennalesi (2014), Venesiya Film Festivalı (Miss Violence, 2013) və digər beynəlxalq səviyyəli tədbirlərdə nümayiş etdirilib, mükafatlar qazanıb.

Beləliklə, çoxdan bəri səbirsizliklə gözlənilən, həyəcan və qürur doğuran tarixi an - Bakı Olimpiya Stadionunda ilk Avropa Oyunlarının açılış mərasimi başladı.

Mərasim “Bakı-2015” birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin dediyi kimi, bir sıra maraqlı məqamlar və sürprizlərlə yadda qaldı.

Tamaşaçıların sürəkli alqışlarından sonra stadiona bir anlıq sükut çökdü. Bu sükutu dünya şöhrətli xanəndə Alim Qasımovun ifa etdiyi muğamın avazı pozdu. Sonra ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başladı. Bu, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini əks etdirirdi.

Rəqəmlər sıfıra yaxınlaşdıqca nağaraların səsi zilə qalxırdı. Stadion gur işığa qərq olur və minədək rəqqasə səhnənin əsas hissəsini ətəkləri ilə örtürdü. Onların ətəkləri Azərbaycanın dünyaca məşhur xalılarındakı həndəsi fiqurlarla, dekorativ naxışlarla işlənmişdi. Rəqqasələrin paltarlarının ətəkləri 16 min kvadratmetr parçadan tikilib. Bu, 13 Olimpiya üzgüçülük hovzu böyüklükdə parça deməkdir. Hər ətək məxsusi olaraq səhnədəki yerinə görə işlənib.

Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycanın dövlət bayrağının obrazı yarandı. Səhnədən səmaya fişənglər atıldı. Şeypurçular Dmitri Şostakoviçin “Bayram uvertürası”ndan bir parça səsləndirdilər. Diqqət VİP-lojalara yönəldi və salamlama başladı. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, “Bakı-2015” ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini hərarətlə salamladılar.

Stadionun VİP tribunasında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, “Bakı-2015” ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki əyləşmişdilər. Oyunların açılış mərasimində iştirak etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Monako Şahzadəsi II Albert, Lüksemburqun Böyük Hersoqu Anri, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Rumıniyanın Baş naziri Viktor Ponta, Bolqarıstanın Baş naziri Boyko Borisov, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah Bin Musaad Bin Əbdüləziz, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, eləcə də San-Marino, İsveçrə, Böyük Britani-

(davamı səh. 2-də)

# "Bakı-2015" birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi olub

## Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib

(əvvəli səh. 1-də)

ya, Slovakiya, Çexiya, İran, Ukrayna, Oman, Küveyt, Qətər və digər ölkələrin yüksək səviyyəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri vardı.

Simfonik orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndirildi.

Azərbaycan Respublikasının dövlət bayrağı stadiona gətirildi.

Stadionda quraşdırılan elektron tablolarda Azərbaycanı qarış-qarış dolaşmış məşəlin səyahət marşrutu nümayiş etdirildi. Uzunluğu 700 metr olan, arena boyu dövrələnən paneldə LED lampaları vasitəsilə alovun səyahət etdiyi məkanların adları bir-bir yazıldı.



Son məşəlçi - iki dəfə paralimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun "5-ci Simfoniya"sının sədaları altında birinci Avropa Oyunlarının məşəlini stadiona gətirdi. Gənclərin Olimpiya Oyunlarında taekvondo üzrə qızıl medala layiq görülmüş Səid Quliyev onunla yanaşı addımlayırdı. Onlar mərkəzə doğru hərəkət etdikləri zaman ayaqları altında cadar-cadar olan torpaq göründü. Bu mənzərə palçıq vulkanları ətrafında Azərbaycan təbiətini göz önündə canlandırırdı.

Səid Quliyev stadionun mərkəzində qaya parçasını götürdü və onun yerində çökək yarandı. İlham Zəkiyev tərəfindən ora yaxınlaşdırılan məşəl söndü, çökək doldu. Torpaq üzərindəki çatlardan çıxan alov qığılcımlarının axını lavanı xatırladırdı.

Stadionun ortasından qaya parçası götürüldü və birinci məşəl gələcəkdə görüləcək işlərə işıq salmaq üçün torpağa basdırıldı.

Torpağın çatlarından çıxan alov səhnənin kənarında dayanmış adama tərəf irəlilədi, ruh və ya hologram kimi onu bürüyüb cana gətirib oyatdı. Həmin adam şair Nizamidir. Şairin əlində tutduğu tərəzinin bir gözündə qadın, digər gözündə kişi fiquru vardı. Nizami poeziyasının ruhundan doğan musiqi parçası tamaşaçıları şairin xəyal dünyasına apardı. Nəzərlər stadionun mərkəzində havadan asılmış iri tərəziyə yönəldi. Nizami əlindəki tərəzini fırlatdıqca iri tərəzi də fırlanırdı. Havadan asılmış iri tərəzinin gümüşü rəngli gözündə qadın (Ay), qızılı rəngli gözündə isə kişi (Günəş) rəqs edirdi. Nizaminin qəhrəmanları Leyli və Məcnunun rəmzləri olan kişi və qadın dövrə vura-vura rəqs edir, qovuşmağa çalışır, lakin birləşə bilmirdilər.

Səhnə ətrafındakı halqada üç yüzədək ifaçı göründü. Qədim tarixə malik miniatür sənətinin yaratdığı obrazlar səhnədə göründükcə halqanın ətrafı rənglə dolurdu. Halqa fırlandıqca adamlar sanki miniatür rəsmlərdə təsvir olunan obrazları canlandırırdılar. Nizami tamaşaçını yaradıcılığının doqquz mövzusu ətrafında səhnədən-səhnəyə aparırdı. Evlər, saray və məktəblər, şahzadələr, əjdahalar, atlar, digər real və əfsanəvi varlıqlar görünürdü.

Halqa tam dövrə vurduqdan sonra yerdən nar ağacı boy verib qalxdı. Nizami ağacdan bir nar dərdi. Qəfildən hər şey dondu.

Nizaminin ətrafındakı miniatürlər dünyası torpağa bataraq yoxa çıxdı, tərəzi uzaqlaşdı və ifaçılar səhnəni tərk etdilər.

Stadionun mərkəzinə doğru uçan, bolluq, oyanış, sevgi, uğur mücəssəməsi olan və Azərbaycanı rəmzləşdirən nəhəng bir nar göründü. Nar paralandı və onun dənələri – qırmızı rəngli yüzlərlə şar tribunaların üzərində uçmağa başlayaraq ecazkar mənzərə yaratdı.

Sonra komandaların paradı başladı. Bu mərasim 50 təbilçinin çaldığı gurultulu təbil sədaları ilə müşayiət olunurdu. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onun arxasınca əlifba sırası ilə gəlirdilər.

İdmançıların keçidini Albaniya, Andorra, Ermənistan, Avstriya, Belarus, Belçika, Bosniya və Herseqovina idmançıları davam etdirdilər.

Tribunaların önündən Bolqarıstan, Xorvatiya, Kipr, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Makedoniya komandaları keçdilər.

Növbə Fransa, Gürcüstan, Almaniya, Böyük Britaniya, Macarıstan komandalarına çatdı. Oyunlarda ən böyük nümayəndə heyəti ilə təmsil olunan ölkələrdən biri Almaniyadır. Bu ölkədən Bakıya 266 idmançı gəlib.

Onların ardınca İslandiya, İrlandiya, İsrail, İtaliya, Kosovo, Latviya, Lixtenşteyn, Litva, Lüksemburq, Malta komandaları gəlib keçdilər. Əslən irlandiyalı olan Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki ölkəsinin komandasını sevinclə salamladı.



Mərasim Moldova, Monako, Monteneqro, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Rumıniya komandalarının keçidi ilə davam etdi.

Rusiya, San-Marino, Serbiya, Slovakiya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Türkiyə, Ukrayna komandaları tribunaların önündən keçdilər. Rusiya bu Oyunlarda ən böyük nümayəndə heyəti - 359 idmançı ilə təmsil olunur. Rusiya Prezidenti Vladimir Putin ayağa qalxaraq ölkəsinin nümayəndə heyətini salamladı.

Tamaşaçılar qardaş Türkiyə idmançılarını xüsusi coşqu ilə qarşıladılar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Bakıya gəlmiş 190 idmançını salamladılar.

İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar. Ölkəmiz Oyunlarda 291 idmançı ilə təmsil olunur. Onların keçidi Məhsum İbrahimovun ifasında "Qarabağ şikəstəsi" muğamı ilə müşayiət olunurdu. Üçrəngli bayrağımızı cüdo üzrə Avropa çempionu Elmar Qasımov apardı. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamladılar.

İdmançılar mərkəzi səhnə ətrafında təntənəli şəkildə addımlayaraq parad zamanı 50 bayrağın yerləşdirildiyi platformaya aparan pillələrdə toplaşaraq tribunalarda yerlərini tutdular.

Daha sonra bayraqların rəqsi başladı. Aaron Koplendin "Adi adam üçün şeypur" əsərindən musiqi parçası ilə başlanan 50 bayrağın rəqsi Natiq Şirinovla 50 nağaraçının ifasında zərb alətlərinin sədası altında davam etdi.

Dünya şöhrətli müğənni Ledi Qaqanın ifası açılış mərasiminin vəd edilən sürprizlərindən biri oldu. O, piano arxasında əyləşərək "Imagine" ("Xəyal et") mahnısını ifa etdi. Müğənninin ifası hərarətlə qarşılandı və dəfələrlə alqışlandı.

Stadiona Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı gətirildi. Onu səhnəyə Avropanın müxtəlif ölkələrindən olan səkkiz Olimpiya çempionu - Namiq Abdullayev (Azərbaycan), Lüsi Dekosse (Fransa), Servet Tazegül (Türkiyə), Nikkolo Kampriani (İtaliya), Keti Teylor (İrlandiya), Tomas Bimis (Yunanıstan), Kristina Fazekas Zur (Macarıstan), Yelena Zamolodçikova (Rusiya) gətirdilər.

Stadionda Uilyam Uoltonun "İmperiya tacı" marşı səsləndi.

AOK-un bayrağı Azərbaycan bayrağı ilə yanaşı ucaldıldı.

Stadiondakı tablolarda Avropa Nüvə Tədqiqatları Təşkilatının və orada çalışmış alimlərin videogörüntüsü, həmçinin ixtiraları yayımlandı. Onların arasında məşhur həmyerlimiz, Nobel mükafatı laureatı Lev Landau da vardı.

Avropa Nüvə Tədqiqatları Təşkilatı 60 ildən çoxdur ki, xalqları elm ətrafında birləşdirərək, sülhə çağırır. Avropa Oyunları beynəlxalq birliyin idmandan od alan yeni məşəlidir.

Böyük adron sürətləndiricisi 100-dən çox xalqı təmsil edən 10 mindən artıq fizik və mühəndisin cəmləşdiyi qurumun – Avropa Nüvə Tədqiqatları Təşkilatının əsas məhsuludur. O, dünyanın ən böyük maşınıdır və Avropanın mərkəzində, yerin dərinliklərində saxlanılır.

Yanıb-sönən LED lampalar stadion boyu zərrəciklərin sürətlə dövrə vurması böyük adron sürətləndiricisi effektini yaratdı.

Stadionun üzərində iri ağ buğa və qız, onların arxasınca sayrışan ulduzlar kəhkəşanı göründü. Bu, Avropa qitəsinin gecə vaxtı kosmosdan görünən siluetidir. Uçub-keçən ulduzlar Bakı səmasında parlayır. Avropa qitəsinin xəritəsinin hazırlanması üçün 16 lazerdən istifadə olunub. İlk dəfə idi ki, bir səhnədə irimiqyaslı animasiya yaratmaq üçün bu qədər lazerdən istifadə edilirdi.

Əfsanəyə görə, Avropa Finikiya şahzadəsi idi. Avropanın gözəlliyinə məftun olmuş yunan tanrısı Zevs çimərlikdə onun qarşısında əzəmətli ağ buğa cildində peyda olur. Heyran qalmış Avropa buğanın tərkinə minir. Zevs dərhal onu oğurlayır və dənizdən keçirib Avropanın cənub sahillərində yerləşən yunan adası Kritə gətirir. Burada Avropanın Zevsdən üç oğlu dünyaya gəlir. Oğullardan biri Avropanın ilk maarifçi sivilizasiyasının əfsanəvi banisi Minos idi. Avropa bu əfsanəvi Şərq şahzadəsinin şərəfinə adlandırılıb və onun buğanın belindəki təsviri qitənin rəmzidir.

Avropa və buğa stadionun üzərində uçduqda Leos Yanaçekin "Ot basmış cığırlarla" əsəri Hokon Eustbönün ifasında səsləndi. Bu bölmə birinci Avropa Oyunlarının rəsmi açılışını ifadə etdi.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva səhnəyə gəldilər.

İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış etdi.

(davamı səh. 3-də)

# “Bakı-2015” birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi olub

## Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib





## Mehriban Əliyevanın çıxışı

-Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax.

Zati-aliləri.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. İlk Avropa Oyunlarına xoş gəlmisiniz.

Əziz həmvətənlər.

Birinci Avropa Oyunlarının açılışı münasibətilə bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm.

Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir.

Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır.

Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır.

Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!

Əziz dostlar, bu axşam biz Avropanın idman tarixində yeni fəsilə başlayırıq.

Azərbaycan fəxr edir ki, ilk Avropa Oyunları Bakıda keçirilir.

Avropa Oyunlarının məşəli müqəddəs Atəşgah məbədində alovlandırıldı və yol boyunca hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə döyündürərək ölkəmizi dolaşdı.

Məşəl bayram, ruhlandırma və birlik mesajını daşıdı.

Məhz alovlanan ruh hamımızı bir araya gətirir.

Mən Avropa Olimpiya Komitəsinə və onun prezidenti Patrik Hikkiyə minnətdarlığımı bildirmək istəyirəm.

Bu minnətdarlıq onun həm ilk Avropa Oyunlarının keçirilməsi üçün Bakının seçilməsinə, həm də yadda qalacaq belə bir tədbirin təşkilinə verdiyi dəstək və göstərdiyi yardım ilə bağlıdır.

Mən, həmçinin Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və Olimpiya ailəsinin üzvlərini salamlamaq istəyirəm. Azərbaycanda Olimpiya hərəkatına verdikləri davamlı dəstəyə görə onlara minnətdaram.

Azərbaycan zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olan ölkədir. Multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir.

Bu il biz Avropa Oyunlarını qəbul edirik.

2017-ci ildə biz İslam Həmrəylik Oyunlarını qəbul edəcəyik.

Bu, Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolu nümayiş etdirir.

Müstəqil dövlət kimi biz gəncik. Cəmi 24 yaşımız var. Yaşımız bu axşamkı mərasimdə geriyə saymağın məhz həmin rəqəmdən başlanılması ilə üst-üstə düşür.

Son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmə müşahidə olunub.

Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bizə bu cür böyük idman tədbirini keçirmək imkanı yaradır.

İşə sadiqliyimiz və yorulmaz fəaliyyət sayəsində vaxtın məhdud olduğunu dəf edərək, bu Oyunları cəmi iki il yarım ərzində hazırladıq.

Mən Oyunları reallığa çevirmək üçün böyük səylə, sadiqliklə və istəklə çalışan şəxslərin hamısına təşəkkürümü bildirmək istəyirəm.

Mən, həmçinin bütün beynəlxalq tərəfdaşlarımıza, bir çox yerli və xarici könüllülərə minnətdarlığımı bildirmək istəyirəm.

Komandamız qarşılıqlı əməkdaşlığın, anlaşma və dostluğun bariz nümunəsidir. Bu axşam biz Avropanın 6 min ən yaxşı atletini ölkəmizdə salamlayırıq.

Hörmətli atletlər, bu Oyunlar sizin üçündür. Siz ilk iştirakçısınız. Siz Avropa Oyunlarının ilk çempionları olacaqsınız. Bütün Azərbaycan xalqı Sizə dəstək vermək üçün bir araya gəlib.

Bakı 17 gün ərzində sizin evinizdən uzaqda ikinci doğma eviniz olacaq. Bu axşam mən xalqımızdan, əldə etdiyimiz bütün nailiyyətlərdən fərəh və iftixar hissi duyuram. Mən bu Oyunlara qəlbən bağlandığınıza görə Sizin hamınıza təşəkkürümü bildirirəm.

Onu da bildirirəm ki, gələn illərdə Avropa Oyunlarının məşəli nə qədər uzaqlarda alovlansa da, Azərbaycanın və “Bakı–2015”-in parlaq ruhunun atəşi orada olacaq.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

Əziz qonaqlar.

Sülhü, dostluğu və həmrəyliyi qeyd etmək üçün Bakıya, Azərbaycana xoş gəlmisiniz!

* * *

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış etdi.

## Patrik Hikkinin çıxışı

-Axşamın xeyir Bakı!

Axşamın xeyir Azərbaycan!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev.

“Bakı-2015”-in Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax.

Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah.

Zati-aliləri dünya liderləri.

Beynəlxalq Olimpiya Komitəsinin üzvləri.

Avropa Olimpiya ailəsinin üzvləri.

Çox hörmətli qonaqlar.

Bakıdan və bütün Azərbaycandan olan əziz dostlar.

Qarşıdan gələn 17 günü canlandıracaq 12.500 könüllü.

Sağ olun.



Çox sağ olun.

Bu, Avropa Olimpiya Komitəsinin tarixində ən fərəhləndirici məqamdır.

Bu axşam burada Bakının yeni möhtəşəm Olimpiya Stadionunda biz Avropa idmanında tarixi məqamın şahidiyik, onu yaradırıq: İlk Avropa Oyunlarının açılışındayıq.

Bu axşam biz dünyanın Qitə Oyunlarına çatışmayan beşinci halqanı əlavə edirik.

Avropanın ilk Oyunları sayəsində biz Olimpiya hərəkatının beş qitəsini bir-birinə daha sıx bağlayacağıq.

Prezident Əliyev, sağ olun, birinci xanım, Əliyeva sağ olun! Azərbaycan, sağ ol! Avropa Olimpiya ailəsini səmimi qəbul etdiyinizə görə sağ olun!

Birinci xanım Əliyeva, Sizin “Bakı-2015”-in Təşkilat Komitəsinin sədri kimi Avropa Oyunlarında oynadığınız rola sözlə qiymət vermək çox çətindir.

Bu sahədə yorulmaz fəaliyyətinizə, Avropada idmanın parlaq gələcəyinə verdiyiniz töhfəyə görə Sizə minnətdaram. Siz bir dövlət kimi qürur doğuran yoldasınız. Bu yolda Sizinlə addımlamaqdan şərəf duyduq. Beynəlxalq ictimaiyyətin üzvü, cəmiyyət və Avropanın yeni idman paytaxtı kimi məqsədlərinizin həyata keçməsində iştirak etməkdən fərəh hissi duyduq.

İdman müsbət dəyişikliklər üçün nadir qüvvədir. Prezident Baxın idmanın universal qanunu hesab etdiyi dəyişikliyi qaçılmaz edən dəyərlərin yayılmasına çalışdıq. Qlobal etika, ədalət, hörmət və dostluq dəyərlərini yaydıq.

“Bakı-2015” uzun yolun ən vacib nöqtəsidir və çılğın arzudur. O, AOK-ın alovlanan iddiasıdır. Bu, Sizin üçün, Bakı üçün, Azərbaycan xalqı üçün indiki nəslə bir dəfə nəsib olan fürsətdir və sizlər onilliklər ərzində bu məkanların, bu sərmayənin və qlobal diqqətin bəhrəsini görəcəksiniz.

İdman və Olimpiya hərəkatının gənc dövlətinizin sürətli inkişafının mərkəzində durmasına daim səy göstərən Prezident Əliyevin və birinci xanım Əliyevanın qətiyyətli mövqeyi hazırlıq işlərimizin aparıcı qüvvəsi oldu.

Bu, sizə - nazir Azad Rəhimovun rəhbərlik etdiyi “Bakı-2015” Avropa Oyunlarının Əməliyyat Komitəsindəki 2000 əməkdaşa göstərilən etimaddır. Çünki onlar Oyunları cəmi 30 ay ərzində həyata keçirmək məqsədilə bu cür qətiyyət və peşəkarlıqla çalışdılar.

Səylərinizə görə çox sağ olun.

İndi isə mən şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi “Bakı-2015” ilk Avropa Oyunlarını açıq elan etməyə dəvət edirəm.

(davamı səh. 4-də)

# “Bakı-2015” birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi olub

## *Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib*

(əvvəli səh. 3-də)





X X X

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarını açıq elan etdi.

Stadionun ətrafında atəşfəşanlıq başlandı.

Stadionun işıqları söndürüldü. Qaranlıqda muğam avazı üstündə tənha bir səs eşidildi. Bu, mərasimin əvvəlində dinlədiyimiz xalq artisti Alim Qasımovun səsi idi. Bu dəfə o, uçan xalça üzərində oxuyurdu.

Çat-çat olmuş torpaq üzərində bir qadın dolaşırdı. Onun əlində yazın gəlişini bildirən, Novruzun rəmzi olan səməni vardı. Ayaqları altında isə ot və bu yerlərdə bitən gülçiçəklər cücərirdi. Xəfif meh qadının uzun, şəffaf duvağını yellədirdi. O, səhnənin ortasına çatdıqda qabı birinci Avropa Oyunlarının məşəlinin basdırıldığı yerə qoydu. Yerdən su çıxmağa başladı, qadının qarşısında nəhəng su hövzəsi – Xəzər dənizinin rəmzi canlandı. O, suda ahəstə addımladı, sonra çevrilib arxasında yaranmış mənzərəyə baxdı.

Bu vaxt yerdən üst-başı toz-torpağa, palçığa batmış 100 kişi çıxdı. Onlar 50 nağaraçının səsləndirdiyi ahənglə ayaqlarını yerə vuraraq ritualı xatırladan Azərbaycan milli rəqsini ifa etdilər. Rəqsin ən qızğın anında sanki zəlzələ baş verirmiş kimi yer yarılmağa və qabarmağa başladı. Yerdən iri qaya parçaları çıxdı və birləşərək nəhəng dağa çevrildi. Onun kənarlarında alovla yazılmış sadə insan və heyvan fiqurları, qayıqlar göründü. Bunlar Qobustanın qədim qayaüstü təsvirləri idi.

Torpağın yarığından çıxan kişi dağın zirvəsində göründü. Stadiona çökmüş sükutu balabanda ifa olunan Azərbaycan xalq mahnısı “Sarı gəlin”in sədaları pozdu. Kişi ayağı altında yanan daşı götürdü. Bu səhnələr Fikrət Əmirovun “Min bir gecə” baletinin uvertürası ilə müşayiət olunurdu. Kişi qarşıda – Xəzər dənizinin sahilində dayanmış qadına baxır və ona tərəf gedirdi. Qadının arxasındakı parıldayan dairəvi qara lövhə yavaş-yavaş suyun üzərindən qalxaraq, Ay kimi göyə ucaldı. Dağ yavaş-yavaş yerə endi və yerə batıb yoxa çıxdı. Onlar açılış mərasiminin əvvəlində təsvir olunan Leyli və Məcnunu xatırladırdı. Kişi yolda daşı daha iki dəfə yerə qoydu. Onun arxasınca çatlardan çıxaraq yayılan alov dilimləri yerdə nəhəng insan fiqurunun təsvirinə çevrildi. Bu, nəhəng petroqlif formasına düşmüş lava axınlarına, Yanardağın heç vaxt sönməyən alovlarına bənzəyirdi. Petroqlif get-gedə daha dolğun insan forması aldı.





Kişi yaratdığı alov mənzərəsinə baxdı. Qadın ona yetişmək üçün sulardan üzüb keçdi. Yanan daşı qaldırdı, alov axınları nəhəng qan-damar sistemi təsvirindəki əl-ayaqlardan başa doğru sürətlə sovrulub yox oldu. Kişi və qadın yanan daşı əllərində birlikdə tutub göyə qalxan dairəvi lövhəyə tərəf qaçmağa başladılar. Onlar dayaz sulara atıldılar və daşı parıldayan qara dairəvi lövhəyə tərəf tulladılar. Yanan daş lövhənin ortasına dəyib, onu parçaladı. Lövhə alışaraq alov dairəsinə çevrildi. Bu, ilk Avropa Oyunlarının məşəli idi.

Beləliklə, ən həyəcanlı an gəlib yetişdi və birinci Avropa Oyunlarının məşəli alovlandı.

Yanan lövhə Yer, Günəş və Ayın bir araya gəldiyi möhtəşəm kosmik mənzərəni – tam Günəş tutulmasını xatırladırdı. Birlik və sülh rəmzi olan ilk Avropa Oyunlarının məşəli stadiondan səmaya ucaldı.

Bundan sonra səhnədəki mənzərə tamaşaçını Bakı sahilinə apardı, qarşıda Xəzər dənizi üzərində tədricən yaranan şaquli alov dairəsi canlandı və atəşfəşanlıq başladı.

Rəngbərəng fişənglər Xəzərin və Bakı Olimpiya Stadionunun üzərində səmanı bəzədi və möhtəşəm bayram mənzərəsi yaratdı.

Məşəl Oyunlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.

Atəşfəşanlığın qızğın vaxtında ifaçılar səhnə boyunca düzüldülər. Onlar əl-ələ verib Azərbaycan milli rəqsi “Yallı” oynadılar. Nar dənəsi rəngində 20 min şar tamaşaçıların üzərinə səpələndi. Bu “nar dənələri” sevgi nişanəsi, uğurun mücəssəməsi və Azərbaycanın rəmzidir.





Birinci Avropa Oyunlarının möhtəşəm açılış mərasimi başa çatdı.

Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bir mərasimlə Avropa Oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.

**AZƏRTAC**

# Azərbaycan Tibb Universiteti üzrə 2014/2015-ci tədris ilində Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənilmişdir

**Mayın 29- da Böyük Elmi Şura 2014/2015-ci tədris ilinin son iclasını keçirdi. İclası açan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov gündəlikdə duran məsələləri şura üzvlərinin diqqətinə çatdırdıqdan sonra Azərbaycan Tibb Universiteti üzrə 2014/2015-ci tədris ilində Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənilmiş və gənc mütəxəssislərin hazırlanması keyfiyyətinin yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" müzakirə edilmişdir.**





Attestasiya Komissiyasının sədrləri I müalicə-profilaktika fakültəsi üzrə Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, ə.e.x., professor Vaqif Verdiyev, II müalicə-profilaktika fakültəsi üzrə, Elmi- Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Elcan Məmmədbəyov, pediatriya fakültəsi üzrə Ə. Əliyev adına Həkimləri Təhkimləşdirmə İnstitutunun dosenti Rəqsanə Məmmədova, tibbi-profilaktika ixtisası üzrə Dövlət Attestasiya Komissiyası sədrinin müavini, ATU-nun epidemiologiya kafedrasının müdiri, İbadulla Ağayev, tibbi-biologiya ixtisası üzrə Milli Onkologiya Mərkəzinin baş direktorunun elmi işlər üzrə müavini, professor Murad Məmmədov, stomatologiya fakültəsi üzrə Ə. Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun stomatologiya kafedrasının dosenti Həsən Əsədov, əczaçılıq fakültəsi üzrə Əczaçılıq və Tibb Sənayesi Birliyinin baş direktoru Rüstəm Rüstəmbəyov, hərbi tibb fakültəsi və hərbi tibb məktəbi üzrə Müdafiə Nazirliyinin Hərbi Tibb Baş İdarəsinin rəisi, general mayor Natiq Əliyev dövlət imtahanlarının yekunları və nəticələri haqqında ətraflı məlumat verdilər. İmtahanlarda tələbələrin biliklərinin obyektiv qiymətləndirildiyini, builki tələbələrin bilik səviyyəsinin yüksək olduğunu söylədilər.

Komissiya sədrləri dövlət buraxılış imhanlarının yüksək səviyyədə keçirilməsi üçün hər cür imkanın yaradıldığını, tələbələrin obyektivlik şəraitində yüksək bilik nümayiş etdirdiklərini bildirdilər.

Böyük Elmi Şura 2014/2015-ci tədris ili üçün universitet üzrə tədris planını və 2014/2015-ci tədris ili üçün ATU-nun iş planını da təsdiqlədi.

Hesabat çıxışlarına yekun vuran universitetin rektoru, akademik Ə.Əmiraslanov komissiya sədrlərinə imtahanları uğurla başa çatdırdıqları üçün öz təşəkkürünü bildirdi və onların hər birinin çalışdıqları sahədə mahir mütəxəssislər olduğunu bir daha vurğuladı. "Həqiqətən də dövlət-buraxılış imtahanları bu il də çox yüksək səviyyədə təşkil olunub. Artıq neçə ildir ki, imtahanların yeni kompyuter sistemi ilə keçirilməsi cəmiyyət arasında bu kompaniya haqqında müsbət fikir formalaşdırıb. İndi sadə insanlar başa düşür ki, vəziyyət tam başqadır. Əvvəlki illərdəki kimi "xahiş-minnət" keçmir. Tam səmimiyyətlə demək olar ki, tələbə imtahana hazırlaşır və gəlib öz biliyini sərbəst nümayiş etdirir. Kənardan heç bir müdaxilə və qeyri adi hadisə baş vermir. Məhz bunun nəticəsidir ki, son illər imtahanlar zamanı elə bir neqativ hala rast gəlinmir və heç bir şikayət bizə daxil olmur. Bu il keçirilən imtahanların nəticələrinə gəldikdə isə bütövlükdə elə bir narazılıq qeydə alınmayıb".

Sözünə davam edən rektor bu və digər məsələlərin rektoryanı və metodik şuralarda müzakirə olunacağını da diqqətə çatdırdı.

Sonda müxtəlif məsələlərdən söhbət açan universitetin rəhbəri professor-müəllim heyətinə mənalı istirahət arzulamaqla yanaşı bildirdi ki, bu il ölkəmizdə keçirilən ilk Avropa oyunları ilə bağlı imtahanlar vaxtından əvvəl sona çatsa da, universitetdə işlər yekunlaşmayıb. Universitetin əməkdaşları məzuniyyətə qədər olan dövrdə hər gün işə gəlməli və yerlərində olmalıdır. Bu müddət ərzində universitetin bütün kafedraları və klinikaları tədris planına uyğun qarşılarında duran vəzifəni layiqincə yerinə yetirməlidirlər.

Akademik Ə. Əmiraslanov daha sonra şura üzvlərini və eləcə də Dövlət Attestasiya Komissiyasının sədrlərini mayın 29-da keçiriləcək Azərbaycan Tibb Universitetinin növbəti buraxılış gecəsinə dəvət etdi.

**MƏNSUR**

# "MƏZUN GÜNÜ" QEYD OLUNDU

**Tələbələr həmişə cəmiyyətin ən aktiv, təşəbbüskar, enerjili təbəqəsi hesab olunub. Bü dövrün acılı-şirinli xatirələri heç zaman unudulmur və tələbə həyatı yaşayan hər kəsi həmişə təqib edib. Onlar tələbəlik dövründə bir çətinliyə düşəndə kövrəlib, zəhmət çəkib yaxşı oxuyub əla qiymət alanda dağ tək vüqarlı olub, min arzu, istəklə yaşayıblar. Bir şeirdə deyildiyi kimi...**

**"Bu beynəlxalq tədbir Azərbaycan xalqı üçün tarixi əhəmiyyət kəsb edir"**





*Yollar ayrıcında duran məzunlar*
*Dağ tək vüqarlıdır, çiçək tək kövrək.*
*Sehirli baxışlar qəlbi ovsunlar,*
*Qəlblərdə yurd salıb min arzu, istək.*

Mayın 29-da Azərbaycan Tibb Universitetində "Məzun günü" əvvəlki illərə nisbətən bu dəfə fərqli axarda keçirildi. Adətən "Məzun günü" hər il iyunun axırlarına yaxın keçirilməsinə baxmayaraq, bu dəfə ertələnmişdi. Səbəbi isə ölkəmizin ilk Avropa Oyunlarına ev sahibliyi etməsi idi. Bu əlamətdar gün münasibəti ilə keçirilən tədbirdə bir az da sönüklük var idi. Çünki mayın 19-da yanan çoxmərtəbəli binada həlak olanların xatirəsinə görə əvvəlki illərə nisbətən konsert proqramı nəzərdə tutulmamışdı.

Tədbiri açan Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili,

(davamı səh. 6-də)

# "MƏZUN GÜNÜ" QEYD OLUNDU

(əvvəli səh. 5-də)

akademik Əhliman Əmiraslanov məzunları və iştirakçıları salamlayaraq tələbə və müəllimlərinin bu gün bayram əhval-ruhiyyəsində olduğunu bildirdi: " Əslində, bu günlər bütün Azərbaycan xalqı böyük bayram ərəfəsindədir. İyunun 12-də Azərbaycanda ilk dəfə olaraq Birinci Avropa Oyunları keçiriləcəkdir. Bu beynəlxalq tədbir ölkəmiz üçün, Azərbaycan xalqı üçün tarixi əhəmiyyət kəsb edir. Ölkəmizdə uşaqdan böyüyə qədər hər kəs bu tədbirin yüksək səviyyədə keçirilməsinə hazırlaşır, bütün hazırlıq işləri artıq başa çatdırılıb. Ölkəmizin bütün idman qurğuları hazır vəziyyətdədir və qonaqlarını








gözləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin Birinci Avropa Oyunlarının açılışı ərəfəsində Atəşgah məbədində alovlandırdığı məşəl respublikamızın bütün rayonlarını, mərkəzi şəhərlərini gəzib dolaşmaqdadır. Xalqımız artıq bu bayramın xoş ovqatını yaşayır və açılış gününü səbrsizliklə gözləyir. Bu günkü buraxılış ATU-nun sayca 89-cu buraxılışıdır. Hər ilin iyun ayının sonlarında ənənəvi olaraq universiteti bitirmiş gənclər üçün "Məzun Günü" keçirilir: Bu gün də universitetimizin kollektivi bu tarixi ənənəyə sadiq qalaraq, belə bir xoş gündə siz məzunları təbrik etməyə, sizə öz xoş arzularını çatdırmağa gəliblər. Bu il həm də Azərbaycan Tibb Universitetinin yaranmasnın 85 illiyidir. Azərbaycanda ali tibb təhsilinin tədrisinə başlanmasının isə bu il 96-cı ildönümüdür. Ölkə başçısı tələbələrin təhsilini daim izləyir və onların layiqli mütəxəssis olmaları üçün hər cür şərait yaradır: 2011-2012-ci tədris ilində fəaliyyətə başlayan rezidentura sistemi də dövlət qayğısının ən bariz nümunələrindəndir. Bu gün həkim diplomuna layiq görülməyiniz, müqəddəs Həkim Andı içməyiniz və həkimlik fəaliyyətinə başlamağınız münasibətilə sizi universitetimizin professor-müəllim heyəti adından və öz adımdan səmimi qəlbdən təbrik edirəm. Hər birinizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram"- deyərək Əhliman müəllim çıxışını yekunlaşdırdı.

### "Savadlı kadrların hazırlanması istiqamətində Tibb Universiteti tərəfindən mühüm addımlar atılır"




Məzunları təbrik üçün söz Səhiyyə nazirinin müavini Elsevər Ağayevə verildi. Elsevər müəllim bu gözəl gün münasibəti ilə Səhiyyə Nazirliyinin rəhbərliyi, hörmətli nazir adından məzunları təbrik etdi. Azərbaycan səhiyyəsinin ölkənin inkişaf tempinə uyğun olaraq inkişaf etdiyini bildirdi. Ölkənin müxtəlif bölgələrində müasir tipli tibb müəssisələrinin inşa edilərək xalqın istifadəsinə verildiyini və həmin müəssisələrin müasir avadanlıqlarla təchiz olunduğunu qeyd etdi: "Ali savadlı həkimlərimiz olmadan müasir tipli tibbi müəssisələrimiz əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərə bilməz. Söz yox ki, Azərbaycan səhiyyəsində aparılan islahatların ən vacib hissələrindən biri savadlı kadr hazırlığı, tibbi təhsilin inkişafıdır"-deyən nazir müavini bu istiqamətdə Azərbaycan Tibb Universiteti tərəfindən mühüm addımların atıldığını bildirdi. Elsevər Ağayev çıxışının sonunda məzunlara gələcəkdə Azərbaycanın layiqli övladları, layiqli həkimləri olmalarını arzu etdi.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Nəsib Məhəməliyev isə çıxışında dövlətimizin iqtisadi inkişafından, tibb sahəsində kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlərdən söhbət açdı. Tibb sahəsinin, səhiyyə sahəsinin ölkədə irəlidə gedən bir sahəyə çevrildiyini vurğuladı.

Məzunlara həkimlik peşəsinə uyğun olaraq humanist olmağı, heç zaman cəmiyyətin təbəqələri arasında ayrı-seçkilik etməməyi, ictimai-siyasi proseslərdə həmişə dövlətimizin yanında olmalarını, möhtərəm Prezidentin apardığı daxili və xarici siyasətdə qazandığı uğurları təbliğ etməyi və dəstəkləməyi də tövsiyyə etdi.

Sonra Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, millət vəkili Məlahət İbrahimqızı məzunlara öz xeyir-duasını verdi. Həm ulu öndər, həm də möhtərəm Prezidentin həkimlər haqqında səsləndirdiyi fikirlərin tarixə qızıl hərflərlə yazıldğını tədbir iştirakçılarının diqqətinə çatdırdı. Tarixən Azərbaycanın ictimai həyatında, o cümlədən ictimai-siyasi həyatında, Azərbaycanın dövlətçilik tarixində həkimlərin böyük xidmətləri, müstəsna rolu olduğunu qeyd etdi. Tibb Universitetinin məzunlarının öz peşə sahələrində, istərsə də dövlətçiliyimizin güclənməsində ulu öndərin bizə əmanət qoyduğu, günü-gündən inkişaf etmiş bu gözəl dövlətə layiqincə xidmət edəcəklərini əminliklə bildirdi.

### Universitetdə 20-yə yaxın ölkənin vətəndaşları təhsil alır

Universitetin tədris hissə müdiri, dosent Nəsimi Qasımovun çıxışından isə məlum oldu ki, bu il Azərbaycan Tibb Universitetini 1056 nəfər məzun bitirir. Onlardan 127-si xarici ölkə vətəndaşıdır. 62 nəfər Azərbaycan vətəndaşı, 1 nəfər xarici vətəndaş, 1 nəfər magistr ATU-nu fərqlənmə diplomu ilə bitirib. Fərqlənmə ilə bitirənlərin 13 nəfəri isə Prezident təqaüdçüsüdür.

Bu il ATU-nu bitirən 1056 nəfər məzundan 53-ü əczaçı-bakalavr, 8-i əczaçı-magistr, 957 nəfəri həkimdir. Onlardan da 82 nəfəri ATU-nun hərbi-tibb fakültəsini bitirmiş hərbi həkimlərdir. Bu ilki məzunlar arasında 38 nəfər hərbi-feldşer də var. Hazırda ATU-nun hazırlıq kursunda 165 müdavim və 19 xarici ölkəni təmsil edən 671 tələbə təhsil alır. Tibb fakültəsinin 120 məzunu hərbi həkim və hərbi feldşer kimi Vətənə xidmətə yola salınır.

Professorlardan İbadulla Ağayev, Məhbubə Vəliyeva da məzunları təbrik edərək onlara ürək sözlərini çatdırdılar, uğurlar dilədilər. Məzunlar adından çıxış edən Prezident təqaüdçüsü Ülviyyə Kazımlı və İraq vətəndaşı Şahdan Hakim onlara göstərilən etimadı doğruldacaqlarını söylədilər.

Daha sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi və məzunlar Hippokrat andı içərək, xalqımızın sağlamlığının keşiyində ləyaqətlə duracaqlarına söz verdilər. Tədbirin aparıcıları I müalicə-profilaktika fakültəsinin məzunu Araz İsmayılov, pediatriya fakültəsinin tələbəsi Pərvin Cabbarov estafeti təqdim etmək üçün Respublika üzrə rezidentura imtahanlarından ən yüksək bal toplayan Fəridə Yusifovaya verdi. Estafeti I kurs tələbəsi, Prezident təqaüdçüsü Fidan Əlizadə qəbul etdi.

Rektor tərəfindən əlaçı tələbələrə diplomlar təqdim olundu.

Məzunların əksəriyyətində bir kövrəklik, yanaqlarında sevinc göz yaşları sezilirdi. Onların kövrəlməsinə səbəb tələbəlik illərində qazandıqları dostlardan və sevimli müəllimlərindən ayrılmaq idisə, sevinmələrinə səbəb müstəqil həyata vəsiqə qazanmaları idi. Həm də tələbə ömrü onlar üçün bir şirin xatirəyə çevrilirdi.

*Döndü xatirəyə tələbə ömrü,*
*Qoy mübarək olsun məzun adınız.*
*Həyat yollarında uğur gətirsin*
*Bu gün içdiyiniz həkim andınız.*

Elə biz də şeirdə deyildiyi kimi Həkim Andı içən məzunlara həyat yollarında uğur qazanmalarını, xalqımızın sağlamlığı keşiyində ləyaqətlə durmalarını arzulayaraq onlardan ayrılırıq. **Həyatınızda uğurlar həmişə Sizi təqib etsin, əziz MƏZUNLAR!**

**Arif MƏMMƏDLİ**
**QABIL ABDULLAYEV**

**Fotolar Cənnətalı CİNGİZİNDİR**

# REAL XƏSTƏLƏRİN YAŞADIĞI KLİNİKİ HALLAR MÜZAKİRƏ EDİLİB

**ATU-nun Kardiologiya Akademiyası (ATUKA) iyunun 5-də növbəti interaktiv elmi tədbirini keçirib. "Gəlin birlikdə müzakirə edək" adı altında keçirilən tədbirə kardioloqlar, nevropatoloqlar, terapevtlər və həkim-rezidentlər qatılıblar.**



Tədris Terapevtik Klinikanın Ürək Damar Mərkəzində çalışan gənc kardioloqların təşəbbüsü ilə yaradılan Kardiologiya Akademiyasının tədbirində artıq 3-cü dəfədir ki, iştirak etdiyini vurğulayan klinikanın direktoru, professor Surxay Musayev qısa müddətdə görülən işləri yüksək qiymətləndirib. O, gənc kardiolaqların təqdim etdiyi mühazirə formatının sovet dönəmindəki ənənəvi mühazirə formatından tamamilə fərqləndiyini deyərək bildirib ki, burada aparılan müzakirələr də akademik xarakter daşıyır. Yəni konkret sual, nümunə əsasında aparılan müzakirələr auditoriyanın iştirakı ilə dəyərləndirilir ki, bu cür interaktiv tədbirləri diskussiya klubu da adlandırmaq olar.

Həyatda hər şeyin almazla, yalnız insanın öyrənməklə cilalandığını xatırladan professor S.Musayev bütün iştirakçıların buradan nəsə öyrənərək, cilalanaraq çıxacağına əminliyini ifadə edib və mühazirəçilərə uğurlar arzulayıb.

Bundan sonra Ürək Damar Mərkəzinin rəhbəri Fərid Əliyev "Sinkoplu xəstəyə yanaşma", həmin mərkəzin invaziv kardioloqu Elnur İsayev isə "Sinkopu birlikdə müzakirə edəkmi?" mövzusunda mühazirə ilə çıxış ediblər. Auditoriya ilə canlı ünsiyyət qurulub və müxtəlif yaş kateqoriyalarına aid olan real xəstələrin yaşadığı kliniki hallar müzakirə edilib.

Xəstəyə yanaşmanın, qoyulan diaqnozların ayrı-ayrı variantları müzakirəyə çıxarılıb. Sinkoplu xəstənin ilkin olaraq kardioloqa, yoxsa nevropatoloqa müraciət etməsi ilə bağlı sual geniş diskussiyaya yol açıb.

Mütəxəssislərin xüsusi fəallıq göstərdiyi müzakirələrin gedişində mövzu ilə bağlı sualları düzgün cavablandıran həkimlərdən Ələsgərli Şəhanə və Yusif Ağayev ATUKA-nın idarə heyəti tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, "Skop" qısa müddət davam edən və spontan tam bərpa ilə xarakterizə olunan müvəqqəti qlobal beyin hipoperfuziyasının səbəb olduğu müvəqqəti huş itməsidir (bayılma). Adətən, 20 saniyədən uzun davam etmir. Bəzi hallarda 2-3 dəqiqə ola bilər.

## TÜRKİYƏLİ PROFESSORUN MÜHAZİRƏSİ DİNLƏNİLİB

**İyunun 4-də Fizika-kimya korpusunun akt zalında ATU-nun Tədris Terapevtik Klinikası və Türkiyə Nefroloji Dərnəyinin təşkilatçılığı ilə elmi mühazirə dinlənilib.**



Türkiyə Nefroloji Dərnəyinin sədri, Ankara Başkent Universitetinin Nefroloji Bilim Dalı Başkanı, professor Dr.Siren Sizer Azərbaycan Tibb Universitetində mühazirə oxumaqdan məmnunluğunu dilə gətirərək ona bu imkanı yaradan universitet rəhbərliyinə təşəkkürünü çatdırıb. Onunla eyni dildə danışan qardaş ölkədə çıxış etməyin qürurverici olduğunu deyib və sonsuz sevinc hissini audutoriya ilə bölüşüb.

Türkiyəli professorun "Radiokontrans maddə nefropatiyası" və "Xroniki böyrək çatışmazlığında qidalanma" mövzusunda mühazirələrini maraqla dinləyən həkim-rezidentlər və mütəxəssislər sonda öz suallarını və fikirlərini səsləndiriblər. Nefrologiyanın aktual problemlərinə dair fikir mübadiləsi aparılıb.

## Amerikalı professor «Doğuş zamanı ana ölümləri» mövzusunda mühazirə edib

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında Amerikadan ölkəmizə gələn professorun mühazirəsi dinlənilib.**



Mühazirədə ATU-nun mamalıq-ginekologiya kafedrasının müəllimləri, tələbələr və rezidentlər iştirak ediblər. Amerikadan olan professor Hanla Klaus "Doğuş zamanı ana ölümləri" mövzusunda mühazirə ilə çıxış edib. Doğuş zamanı ana ölümlərinin səbəblərini araşdıran professor bununla bağlı tədbir iştirakçılarının suallarını cavablandırıb.

## Azərbaycan Tibb Universitetinin rəhbərliyi bütün əməkdaşlarını, professor-müəllim heyətini və tələbələrini




## münasibətilə təbrik edir!

## ATU-da ilk dəfə prostat vəz laporoskopik yolla çıxarıldı

**Əməliyyatda Azərbaycanla yanaşı Almaniya və Türkiyədən mütəxəssislər iştirak ediblər.**



Bu günlərdə ATU-nun Tədris Cərrahiyyə klinikasında laporoskopik radikal prostatektomiya əməliyyatı icra edilib. Əməliyyatda iştirak edən həkimlərdən biri, ATU-nun onkologiya kafedrasının assistenti, uzman-onkouroloq Vasif İsmayıl bildirib ki, iki saat yarım davam edən əməliyyatın nəticəsi uğurlu olub: "Bizə 70 yaşlı xəstə müraciət etmişdi. Onda müayinələr nəticəsində prostat vəzin xərçəngi aşkarlandı. Bu, doğrudan da dəhşətli xəstəlikdir, dünyada kişilərin ölümünə səbəb olan əsas xəstəliklərdən biridir. Ancaq prostat vəzin xərçəngi vaxtında aşkarlanaraq düzgün müalicə olunarsa, xəstəni tamamilə sağaltmaq mümkündür".

Uroloq Vasif İsmayıl qeyd edir ki, ATU-nun Tədris Cərrahiyyə klinikasına müraciət edən bu xəstədə prostat vəzin tamamilə çıxarılması əməliyyatı - radikal prostatektomiya əməliyyatı aparılmalı idi: "Radikal prostatektomiyanı həm klassik, açıq əməliyyatla, yəni köhnə metodla aparmaq mümkündür, həm də laporoskopik, robot yardımı ilə etmək olar. Biz isə laporoskopik radikal prostatektomiyaya qərar verdik. Bu əməliyyat bütün laporoskopik əməliyyatların ən çətini və əziyyətlisi sayılır".

Qeyd edək ki, ATU-nun Tədris Cərrahiyyə klinikasında icra edilən bu əməliyyatda Vasif İsmayılla yanaşı, Türkiyənin məşhur uroloqu Yaşar Özgük, Almaniyada yerləşən Haydinbörq Klinikasının urologiya şöbəsinin şef yardımçısı Əli Sərdar Gözən də iştirak etmişdir.

Vasif İsmayıl qeyd edir ki, "bu əməliyyatın icrası təkcə ATU üçün deyil, ümumiyyətlə Azərbaycan tibb elmi üçün əlamətdar bir hadisədir. Laporoskopik radikal prostatektomiya əməliyyatını Azərbaycanda ilk dəfə icra etmək bizim də həvəsimizi artırır. Çünki biz artıq bir neçə ildir ki, laporaskopik urologiya ilə ciddi şəkildə məşğul oluruq. Əməliyyat etdiyimiz xəstənin indiki vəziyyəti normaldır, adekvatdır, özünü yaxşı hiss edir".

Qeyd edək ki, 8-9 iyun tarixlərində ATU-nun Tədris Cərrahiyyə Klinikasında Türk Uro-Lap dərnəyinin 32-ci beynəlxalq tətbiqi laparoskopik urologiya kursu təşkil olunmuşdur. Yuxarıda söz açdığımız əməliyyatda iştirak edən həkimlər həm də bu tədbirə qatılıblar.

## Azərbaycan Tibb Universitetində "Koxlear implantasiya" əməliyyatı icra olunub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında "Daxili qulağın protezləşməsi" əməliyyatlarının icrasına başlanılıb. Bu əməliyyatın köməyilə anadangəlmə, eşitmə qabiliyyəti heç olmayan uşaqların eşitməsi bərpa olunur**



4 iyun 2015-ci il tarixində Tədris Cərrahiyyə Klinikasında 3 yaşlı Səadət və 4 yaşlı Ömərin üzərində aparılan əməliyyat uğurla nəticələnib. Bu gün isə artıq 2 yaş 2 aylıq İbrahim əməliyyata alınıb.

Əməliyyatlar Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Qulaq-burun-boğaz şöbəsinin müdiri, Uzman Həkim Yusif Hacıyevin rəhbərliyi və iştirakilə aparılır.

Yusif Hacıyevin sözlərinə görə, "Daxili qulağın protezləşməsi"əməliyyatlarının anadangəlmə, tam eşitmə qabiliyyəti olmayan uşaqların eşitmə qabiliyyətlərini bərpası məqsədilə aparılır: "ATU-nun Tədris Cərrahiyyə Klinikası bu əməliyyatların həyata keçirilməsi üçün hər cür şərait və avadanlıqla təchiz olunub. Xəstələrin vəziyyəti həm əməliyyat öncəsi, həm əməliyyat icrası baxımından dəyərləndirilir. Bununla əlaqədar klinikada yüksək ixtisaslı həkimlərdən ibarət böyük bir komanda fəaliyyət göstərməkdədir. Bu əməliyyatların uğurlu keçməsi tək bir cərrahın deyil, böyük komandamızın yüksək səviyyəli işinin nəticəsidir".

Y.Hacıyev bildirir ki, eşitməsində anadangəlmə problem olan, qətiyyən eşitməyən uşaqlarla bağlı hər kəs ATU-nun Tədris Cərrahiyyə Klinikasına müraciət edə bilər. Lakin həkim belə problemi olan uşaqları mümkün qədər tez həkimə müraciət etməyi məsləhət görür: "Çünki belə əməliyyatların 4 yaşa qədər icrası məsləhətdir. Həmçinin, əvvəllər eşidib-danışan, lakin sonradan bu qabiliyyətini itirən xəstələrə də bu əməliyyatı tətbiq etmək mümkündür".

**ATU-nun mətbuat xidməti**

# Azərbaycan Tibb Universitetinin tələbələri birinci Avropa Oyunlarında könüllülər kimi iştirak edirlər

**Bakıda Avropanın ən böyük idman hadisəsi başladı**

12 iyun-28 iyun tarixlərində keçiriləcək “Bakı 2015” I Avropa Oyunlarında 6000-dən çox idmançı 20 idman növü üzrə medallar uğrunda mübarizə aparacaq.

Oyunların açılış mərasimi iyunun 12-də 21:00-da Olimpiya Stadionunda baş tutdu. Oyunlar 16 idman obyektində keçiriləcək. 17 gün ərzində yarışları 600 minə yaxın tamaşaçının izləyəcəyi gözlənilir. Təkcə Avropanın deyil, bütün dünyanın maraqla gözlədiyi Avropa Oyunları dünyanın 5 qitəsində yayımlanacaq. “Bakı 2015” I Avropa Oyunlarında tik, həm də müalicəsinin yüksək səviyyədə təşkil edilməsidir. Bunun üçün hər bir idman obyektində xüsusi tibb komandamız var. Orada həm həkimlər, həm rezidentlər, həm də tələbələr çox aktiv iştirak edirlər. Qonaqlar qalan məkanlarda xüsusi tibbi komandamız, poliklinikamız fəaliyyət göstərir. Orada da həkimlər, rezidentlər və tələbələr çox aktiv çalışırlar. Atletlər kəndində də poliklinikamız fəaliyyət göstərir. Nəinki xəstənin ilkin müayinəsini aparmaq mümkündür, həm də böyük İdman təbabəti şöbəsi yaradılıb ki, burada da ailə həkimləri, reanimatoloqlar, oftolmoloqlar və diş həkimlərinin kabinetləri



ev sahibi Azərbaycanı 289 idmançı təmsil edəcək.

**ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov** ilk Avropa Oyunlarının ölkəmizdə keçirildiyini yüksək qiymətləndirir. Onun sözlərinə görə, “Bakı 2015” I Avropa Oyunlarında ATU-dan ümumilikdə 1000-ə yaxın tələbə könüllü olaraq iştirak edəcək: bunlardan 400 nəfəri 3 ay ərzində Universitetin Tədris Cərrahiyyə Klinikasında təlimlər keçiblər. Onlar “Bakı 2015” I Avropa Oyunlarında həkim yardımçısı qismində iştirak edəcəklər. Geridə qalan tələbələrimiz isə digər sahələr üzrə çalışacaqlar. Onlarla mütəmadi olaraq əlaqədəyik. Baxmayaraq ki, dərslər bitib, bu tələbələrin bəzilərinin universitet yataqxanasında qalmalarına şərait yaradırıq.

**ATU-nun Xarici Tələbələrlə iş üzrə dekanı, “Bakı 2015” ilk Avropa Oyunlarının ictimai-səhiyyə meneceri İsmayıl Əfəndiyev:**

-Bizim “Bakı 2015” I Avropa Oyunları Təşkilat Komitəsi ilə əməkdaşlığımız 2 il bundan öncə başlamışdı. 2014-cü ilin may ayında hörmətli nazirimizin təşəbbüsü ilə ilk Avropa Oyunlarının Təşkilat Komitəsinə ictimai-səhiyyə meneceri vəzifəsinə mənim namizədliyimi təklif etdilər və işə başladım. Əsas işimiz bütün Avropa Oyunlarında iştirak edən komandaların tibbi və antidopinq təminatını, müxtəlif yoluxucu xəstəliklərə yoluxma (zəhərlənmələr) və s. kimi məsələləri yoxlamaqdır. Qarşımızda duran vəzifələrdən biri də Bakıya gələn çoxsaylı idmançılar, qonaqlar, jurnalistlər, həmçinin, adi turistlərin oyunlar zamanı həm profilakvar. Buradakı “Aptek”dən həm idmançılar, həm də jurnalistlər dərmanları pulsuz əldə edə bilərlər”.

**ATU-nun stomatologiya üzrə həkim-rezidenti Mirzə Mirzəyev:**

- Birinci Avropa Oyunlarında stomatoloq vəzifəsini yerinə yetirirəm. Bu vəzifədə mənimlə bərabər 8 nəfər həkim-rezident stomatoloq çalışır. Biz gün ərzində 2 növbə olmaqla, Atletlər kəndində olan personala xidmət göstəririk. “Bakı 2015” mənim həyatımda çox dəyişiklik etdi. Həmçinin gələcək işlərimizdə bizə çox böyük kömək olacağını düşünürəm. Yeni bir əhatəmiz yarandı, yeni insanlarla tanış olduq. Biz bunu dünyaya açılan bir pəncərə kimi qəbul edirik. İyun ayının 3-dən rəsmi olaraq işə başlamışıq. Bundan öncə treninqlərdə iştirak etmişik, xəstələrlə necə davranmaq, ilkin tibbi yardım və digər istiqamətlərdə təlimlər keçmişik. Bu günlər ərzində bir pasientimizə sadəcə konsultasiya, 2 pasientimizə restavrasiya (plomb dəyişilib) olunub, 2 pasientimizin dişi çəkilib, 1 pasientimiz isə evident olunub.

**Mehdi Axundov:**

- Artıq 2 gündür ki, “Bakı 2015”-də çalışıram. Mənim üçün təcrübə baxımından çox maraqlıdı.

**ATU-nun rezidenti Leyla Fətullayeva:**

- 29 maydan etibarən Media kəndində tibb bacısı kimi fəaliyyət göstərirəm. Özüm üçün bunu fəaliyyətimdə bir ixtisasartırma, praktiki cəhətdən xeyirli hesab edirəm. Həm də biz orada öz vətəndaşlarımızla yanaşı, xarici vətəndaşları da müayinə edirik ki, bu da olduqca maraqlı haldır.

**Günel ASLANOVA**

---

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və tələbələri xalqımızı möhtəşəm idman bayramı münasibətilə təbrik edir, idmançılarımıza uğurlar diləyir!**




# İLK AVROPA OYUNLARININ «ALOV QORUYANLARI»

**◆Bakıda keçirilən ilk Avropa Oyunlarında iştirak edən könüllüləri həm də “Alov Qoruyanlar” kimi tanıyırıq. Məlumata görə oyunlar zamanı 12 500 könüllü işə cəlb olunub. Onların arasında Azərbaycan Tibb Universitetinin minə yaxın tələbəsinin də iştirak etdiyini nəzərə alaraq onlardan bir neçəsi ilə görüşüb, bu beynəlxalq əhəmiyyətli tədbirdə necə iştirak etmələri ilə bağlı münasibət öyrəndik.**

qeydiyyatdan keçərək təlimlərə qatılıb və ilk anlayışlar barədə məlumatlar alıb. Hazırda voleybol, basketbol və üzgüçülük yarışları keçirilən arenada iştirakçılara lazımi tibbi yardım göstərir. I Müalicə profilaktika fakültəsinin II kurs tələbəsi Leylan Məmmədova da bu tədbirə yüksək əhval-ruhiyyə ilə qatılıb. Hesab edir ki, «Heydər Əliyev arenası»nda iştirakçılara yarışın sonunadək lazımi tibbi yardımı göstərəcək. Bunu keçirilən təlimləri yaxşı mənimsəməsi və ingilis dilini








ATU-nun Hərbi tibb fakültəsinin IV kurs tələbəsi Miryaqub Bağırlının bildirdiyinə görə, o, yarışda 12 könüllüdən ibarət qrupa rəhbərlik edir: “Qrupun üzvləri tədbirdə iştirak etmək üçün lazımi təlimat keçiblər. Biz əsasən tədbirə gələnlərin giriş-çıxışını tənzimləyirik. Üzvlərdən hansısa problemlə üzləşərsə, qrup rəhbəri kimi aradan qaldırmağa çalışıram. İnanıram ki, bu tədbirdə göstərəcəyimiz xidmətdən hər kəs razı qalacaq”. I müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Gülçin Nəbiyeva isə bildirib ki, ötən il də Avropa üzrə keçirilən oyunlarda könüllü iştirak edib. Bu sahədə kifayət qədər təcrübəsi olduğundan, ölkəmiz və xalqımızın həyatı üçün əhəmiyyətli olan bu tədbirdə də könüllü olmaq qərarına gəlib. Bu səbəbdən bilməsi ilə izah edir.

Hər halda, istər-istəməz könüllülərlə bağlı «Bakı 2015» Avropa Oyunları Əməliyyat Komitəsinin Əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin söylədiyi fikirlərlə razılaşmalı olursan. Onun sözlərinə görə, istənilən böyük multi-idman oyunlarında idmançılar yarışın ürəyi və könüllülər isə ruhu hesab olunurlar. Bu həqiqətən də belədir, iştirak edən könüllülər yarışın ruhu hesab olunmaqla yanaşı, həm də bizim “Alovu Qoruyanlar”ımızdır.

Çox istərdik ki, bu cür fədakar gənclərimizin sayəsində ölkəmizi nura qərq edərək şölələnən alovun əks-sədası bütün dünyaya yayılsın.

**QABİL**

## Etibarsız sayılır

Alıyev Mail Vəli oğluna 1998-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən provizor ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədov Pərviz Məmmədrza oğluna 1996-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 243ª qrup tələbəsi Pənahova Simuzər Qurban qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hacıkərimova Hənifə Şirin qızına 1997-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin IV kurs, 610 qrup tələbəsi Qaracayeva Xədicə Bəhman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 100**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 242